Gəncə Dövlət Universiteti

# MAGİSTRLİK DISSERTASİYASI

## Yazılma metodikası, tərtibat qaydaları, müdafiə prosesi

Magistratura səviyyəsində təhsil alan tələbələr üçün

**METODİKİ TÖVSİYƏ**

**GƏNCƏ-2024**

**AZƏRBAYCAN RESPUBLİKASI**

**ELM və TƏHSİL NAZİRLİYİ**

**GƏNCƏ DÖVLƏT UNİVERSİTETİ**

# MAGİSTRLİK DISSERTASİYASI

## Yazılma metodikası, tərtibat qaydaları, müdafiə prosesi

Magistratura səviyyəsində təhsil alan tələbələr üçün

## METODİKİ TÖVSİYƏ

*Gəncə Dövlət Universitetinin 02 fevral 2024-cü il tarixli 5/42 saylı əmri və Fizika və texniki fənlər fakültə Elmi Şurasının 25 yanvar 2024-cü il tarixli 06 saylı protokoluna əsasən təsdiq edilmişdir.*

**Gəncə - 2024**

**AZƏRBAYCAN RESPUBLİKASI**

**ELM və TƏHSİL NAZİRLİYİ**

**GƏNCƏ DÖVLƏT UNİVERSİTETİ**

# MAGİSTRLİK DISSERTASİYASI

## Yazılma metodikası, tərtibat qaydaları, müdafiə prosesi

Magistratura səviyyəsində təhsil alan tələbələr üçün

## METODİKİ TÖVSİYƏ

*Gəncə Dövlət Universitetinin 02 fevral 2024-cü il tarixli 5/42 saylı əmri və Fizika və texniki fənlər fakültə Elmi Şurasının 25 yanvar 2024-cü il tarixli 06 saylı protokoluna əsasən təsdiq edilmişdir.*

**Gəncə - 2024**

## TƏRTİB EDƏNLƏR:

**Emin Kərim oğlu Yaqubov**

Gəncə Dövlət Universitetinin Magistratura şöbəsinin müdiri, dosent

**Samirə Qaçay qızı Cəfərova**

Gəncə Dövlət Universitetinin Magistratura şöbəsinin müdir müavini, fizika üzrə fəlsəfə doktoru

## RƏYÇİLƏR:

**Elçin Məhəmməd oğlu Cavadov**

Gəncə Dövlət Universitetinin Ümumi texniki fənnlər və texnologiya kafedrasının müdiri, dosent

**Allahverdi İsgəndər oğlu Quliyev**

Gəncə Dövlət Universitetinin Təhsilin pedaqogikası və metodikası kafedrasının müdiri, dosent

**Elturan Cahad oğlu Yusifov**

Gəncə Dövlət Universitetinin Tədris departamentinin direktoru, dosent

Metodiki tövsiyə Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanunu, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12.05.2010-cu il tarixli 88 nömrəli qərarı ilə təsdiq edilmiş "Magistratura təhsilinin məzmunu, təşkili və "magistr" dərəcələrinin verilməsi Qaydaları", Azərbaycan Respublikası Təhsil Nazirliyinin 20 aprel 1998-ci il tarixli əmri ilə təsdiq edilmiş "Magistrlik dissertasiyasının hazırlanması, təqdim olunması və müdafiəsi qaydaları haqqında əsasnamə", Azərbaycan Respublikası Təhsil Nazirliyinin 10.11.1998- ci il tarixli 742 saylı əmri ilə təsdiq olunmuş "Magistrlik dissertasiyasının müdafiəsi üçün ixtisaslaşdırılmış Elmi şuralar haqqında əsasnamə" və digər müvafiq normativ-hüquqi aktların tələbləri əsasında tərtib edilmişdir.

Verilmiş tövsiyələr çapa göndərilən əlyazmalara qoyulan tələbləri nəzərə almaqla elmi yardıcılıq işinin metodoloji, metodiki və texniki aspektlərini, eləcə də dissertasiyanın ilkin və son variantlarının yazılması texnologiyasını, onun mətninin və illüstrasiya materiallarının tərtib olunması qaydalarını əhatə edir. Bunlarla yanaşı metodiki tövsiyədə magistrlik dissertasiyasının yekun müdafiəsi proseduru da təsvir edilmişdir.

# GİRİŞ

Ali təhsilin magistratura səviyyəsində təhsil alanların Yekun Dövlət Attestasiyası magistrlik dissertasiyasının müdafiəsi şəklində həyata keçirilir. Magistrlik dissertasiyası – elmi yaradıcılıq fəaliyyətinin xüsusi növüdür. O, elmi rəhbərin nəzarətii altında yerinə yetirilən müstəqil elmi tədqiqat işidir və seçilmiş ixtisasın magistr dərəcəsini almaq üçün tələb olunan mərhələlərdən biridir. Məzun olmaq üçün magistrlik dissertasiyasının icrası vacibdir. Belə ki, magistrlik dissertasiyasının müdafiəsi magistratura pilləsini bitirmək üçün məcburi meyardır. Magistr dissertasiyasının müdafiəsi bu məqsədlə ali təhsil müəssisələrində xüsusi olaraq yaradılmış İxtisaslaşdırılmış Elmi Şuranın iclasında həyata keçirilir.

Müasir ali təhsil strukturunda magistr dərəcəsi elmi səviyyəyə görə bakalavr dərəcəsindən sonra, fəlsəfə doktoru dərəcəsindən əvvəl gəlir. Lakin Magistr alimlik dərəcəsi deyil, ali təhsilli məzunun təhsil səviyyəsini əks etdirən və yeni formalaşan elmi işçiyə xas olan bilik, bacarıq və vərdişlərin olduğunu sübut edən akademik dərəcədir.

Magistrlik dissertasiyası ona həsr olunmuş tədqiqatın əhatə etdiyi müddəaların, nəticələrin və tövsiyələrin, onların yenilik dərəcəsinin, elmi-praktiki əhəmiyyətinin hansı səviyyədə əks olunduğunu və əsaslandırıldığını mühakimə etməyə imkan verən aydın bir formada təqdim olunmalıdır. Dissertasiyada əldə edilən nəticələrin şərhi müəllifin seçdiyi peşə istiqaməti üzrə ilkin elmi bacarıqlarının olduğunu sübut etməlidir.

Mövcud olan qaydalara əsasən magistrantlar elmi rəhbərin nəzarəti altında işləyirlər. Onun vəzifəsi magistranta

aktual mövzu seçməkdə, tədqiqatın yeniliyini əsaslandırmaqda, fərziyyə irəli sürməkdə yardımçı olmaq, tədqiqatın vəzifələrini müəyyənləşdirmək və aparılan tədqiqatdan nəticələrini formalaşdırmaq kimi işlərin icrasında məsləhətlər vermək, materiallarla, mənbələrlə işləməyi öyrətməkdir. Dissertasiya işi mütləq praktiki əhəmiyyət daşımalı, ixtisasın tədris proqramına uyğun olmalıdır.

Magistrlər aşağıdakı kompetensiyalara malik olmalıdır:

Bilməlidir:

- Tədqiqatın fundamental elmi bazasını;
- Elmi yaradıcılığın metodologiyasını;
- Müasir informasiya texnologiyalarını;
- Elmi informasiyanın əldə edilməsi, emalı və saxlanılması metodlarını.

Bacarmalıdır:

- Tədqiqatın məqsədini formalaşdırmağı;
- Tədqiqat planını tərtib etməyi;
- Müasir informasiya texnologiyalarından istifadə etməklə biblioqrafik iş aparmağı;
- Lazımi tədqiqat metodlarını seçməyi, mövcud olan metodları dəyişdirməyi və konkret tədqiqatın vəzifələrinə əsasən yeni metodlar hazırlamağı;
- Mövcud elmi məlumatları nəzərə alaraq onları təhlil etməyi, əldə edilmiş nəticələri sistemləşdirməyi, onların təhlilini aparmağı;
- Görülmüş işlərin yekunlarına dair hesabatlar hazırlamağı, alınan nəticələrin məzmununu mövcud tələblərə uyğun qaydada, rəsmiləşdirilmiş hesabatlar, referatlar, tezis və

məqalələr şəklində dövri elmi mətbuatda, elmi konfrans və seminarlarda təqdim etməyi.

Magistrlik dissertasiyası üzərində iş tələbənin fərdi iş planına uyğun aparılır. Fərdi iş planı tələbənin magistraturada ixtisaslaşmasını, təhsilin məzmununu, həcmini, təhsil müddətini və təhsil alanın attestasiya formasını müəyyən edən əsas rəhbər sənəddir. Burada magistrlik dissertasiyasının mövzusu da əks etdirilir.

Magistrlik dissertasiyası elmi adı və (və ya) dərəcəsi olan elmi rəhbərin rəhbərliyi altında yerinə yetirilir. Müxtəlif elmi istiqamətlərin qovşağında dissertasiya yerinə yetirildiyi təqdirdə bir və ya iki məsləhətçinin təyin edilməsinə icazə verilir. Magistr dissertasiyası üzrə yerinə yetirilən elmi tədqiqat işinin ardıcıllığını aşağıdakı məntiqi sxem şəklində təqdim etmək olar:

1. Seçilən mövzunun aktuallığının əsaslandırılması.
2. Tədqiqatın məqsədinin və konkret vəzifələrinin qoyulması.
3. Tədqiqat obyektinin və predmetinin müəyyən edilməsi.
4. Tədqiqatın aparılması üsullarının (metodikasının) seçilməsi.
5. Tədqiqat prosesinin təsviri.
6. Tədqiqatın nəticələrinin müzakirəsi.
7. Nəticələrin formalaşdırılması və qiymətləndirilməsi.

## ÜMUMİ MÜDDƏALAR

1. Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş "Magistratura təhsilinin məzmunu, təşkili və "magistr" dərəcələrinin verilməsi Qaydaları"na əsasən ali təhsilin magistratura səviyyəsində təhsilini başa vuran magistrlərin yekun dövlət attestasiyası magistrlik dissertasiyasının müdafiəsi (ixtisasdan asılı olaraq buraxılış imtahanı da ola bilər) şəklində həyata keçirilir.

2. Magistrantların yekun dövlət attestasiyasında məqsəd təhsil proqramını başa vuran məzunların ümumi bilik səviyyəsini yoxlamaq, onların peşə vəzifələrini yerinə yetirməyə hazırlıqlarını və dövlət təhsil standartları əsasında tərtib edilmiş əsas təhsil proqramlarının tələblərinə uyğunluqlarını müəyyən etməkdir.

3. Magistrlik dissertasiyası müasir elm və texnika üçün nəzəri və ya praktiki əhəmiyyəti olan aktual vəzifənin həllinə həsr olunmuş tədqiqat xarakterli buraxılış işidir.

4. Magistrlik dissertasiyası magistrantın elmi potensialının açıqlanması, o cümlədən onun müstəqil elmi-tədqiqat işi aparması, araşdırılan sahədə problemlərin həlli zamanı müasir üsul və yanaşmalardan istifadə etməsi, aparılan tədqiqatın nəticələrini müəyyənləşdirməsi, alınan nəticələri formalaşdırması, onları arqumentləşdirməklə əsaslı tövsiyə və təkliflər hazırlaması bacarıqlarını üzə çıxarmaq məqsədi daşıyır. Magistratura təhsili dövründə aparılan tədqiqatlar hazırlıq istiqamətinə və peşə fəaliyyətinin növünə uyğun olmalıdır. Onlar elmi-tədqiqat, layihə-istehsalat xarakteri daşıya bilərlər.

5. Magistr dissertasiyasının yazılışı aşağıdakı məqsədlər daşıyır:

- magistrant tərəfindən onun dissertasiya mövzusu ilə bağlı nəzəri və praktiki biliklərin sistemləşdirilməsi, möhkəmləndirilməsi və genişləndirilməsi, onların konkret elmi-tədqiqat və konstruktor-layihələndirmə işlərində tətbiqi imkanlarının əsaslandırılması;

- magistrantın tədqiqat üsullarını və eksperimentlərin təşkili metodikasını mənimsəməsi, elmi problemlərin və məsələlərin həlli istiqamətində müstəqil iş aparmaq bacarıqlarının inkişafı;

- magistrantın pedaqoji, elmi-tədqiqat, və istehsalat sahələrində müstəqil işə hazırlıq dərəcəsinin qiymətləndirilməsi.

6. Dissertasiya tədqiqatının nəticələri magistrantın ixttisası üzrə təhsil proqramının tələblərinə uyğun peşə kompetensiyalarına malik olduğunu sübut etməlidir. Dissertasiyanın məzmunu elm, texnika, texnologiya, iqtisadiyyat, menecment, sosial inkişaf, istehsalat və s. sahələrdə aktual vəzifələrin həllinə yönəlmiş nəzəri araşdırmalardan, eksperimental tədqiqatlardan və onların nəticələrindən ibarət ola bilər.

7. Magistrlik dissertasiyası magistrantın müstəqil şəkildə apardığı araşdırmalar zamanı əldə etdiyi materiallara və tədris dövründə elmi rəhbərin nəzarəti altında yerinə yetirdiyi tədqiqatlara əsaslanaraq icra olunur.

8. Magistr dissertasiyasının əsas nəticələri elmi-praktiki konfranslarda nəşr oluna və çıxışlar şəklində təqdim edilə bilər.

## MAGİSTRLIK DİSSERTASİYASININ MÖVZU SEÇİMİ

1. Magistrlik dissertasiyasının mövzusu aktual olmalıdır, elmi və (və ya) praktiki maraq doğurmalıdır və magistrantın seçdiyi hazırlıq istiqamətinə (ixtisasına) uyğun olmalıdır. Dissertasiya mövzularının təxmini siyahısı kafedranın və universitetin elmi-tədqiqat istiqamətləri, regionun inkişaf perspektivləri, eləcə də magistrantların elmi və (və ya) praktiki maraqları nəzərə alınmaqla tərtib edilir.

2. Magistrlik dissertasiyalarının mövzuları müvafiq ixtisas kafedralarının və fakültə elmi şuralarının iclaslarında müzakirə olunuraq protokolla təsdiq edilir.

3. Təsdiq olunmuş dissertasiya mövzuları təhsil alanların seçiminə verilir.

4. Magistrantlar tərəfindən seçilmiş dissertasiya mövzuları rektorun əmri ilə hər bir tələbə üçün rəhbər müəllim və zəruri hallarda məsləhətçi göstərilməklə təsdiqlənir.

5. Magistrlik dissertasiyasının mövzusunu seçərkən aşağıdakılar rəhbər tutulmalıdır:

- mövzu dövrümüzün tələbləri ilə ayaqlaşmalı, elmin, texnikanın və texnologiyanın müasir vəziyyətinə və ölkəmizin inkişaf perspektivlərinə uyğun olmalıdır;
- magistratura təhsili prosesində aparılan elmi-tədqiqat işlərinə əsaslanmalıdır;
- ədəbiyyatda işlənmə və işıqlanma dərəcəsi nəzərə alınmalıdır;
- dissertasiya üzərindəki iş prosesində eksperimental nəticələrin alınması imkanına diqqət yetirilməlidir ;

• işin aprobasiyasının yerinə yetiriləcəyi müəssisə və təşkilatların maraqları və ehtiyacları önə çəkilməlidir.

6. Magistrlik dissertasiyasının mövzusu əsaslandırılmış səbəb göstərilməklə, magistrantın yazılı müraciəti əsasında, elmi rəhbər, magistr proqramının rəhbəri və kafedra müdirinin razılığı ilə dəyişdirilə bilər.

## MAGİSTRLİK DİSSERTASİYASINA RƏHBƏRLİK

1. Magistraturaya qəbul edilmiş tələbələrə (magistrantlara) birinci semestrin ilk 3 ayı ərzində elmi rəhbər təyin olunur və sonrakı mərhələlərdə onun rəhbərliyi altında dissertasiya mövzusunun seçilməsi, dissertasiyanın hazırlanması, yazılması və müdafiəsi həyata keçirilir.

2. Elmi rəhbərin əsas funksiyaları aşağıdakılardır:

• magistratranta dissertasiya mövzusunu seçməkdə kömək edir;

• magistrant ilə birlikdə dissertasiyanın yerinə yetirilməsinə dair tapşırıq vərəqi hazırlayır (əlavə 1);

• rəhbərlik etdiyi magistranta fərdi iş planını hazırlamaqda, dissertasiyanın icrası üçün zəruri olan ədəbiyyat mənbələrini və informasiyaları seçməkdə məsləhətlər verir;

• sistematik olaraq dissertasiya işinin icrasına, elmi məqalələrin nəşrinə dair tövsiyələr verir, magistranta lazımi metodiki yardımlar göstərir;

• dissertasiya üzərində işlərin gedişatına nəzarət edir, yerinə yetirilən işin məzmununu hissələr üzrə qiymətləndirir və zəruri hallarda düzəlişlər edir;

• dissertasiyaynın ixtisaslaşdırılmış elmi şura qarşısında yekun müdafiəyə buraxılmasını məqsədəuyğun hesab etməsi və

yaxud əksinə, müdafiəyə yararsız olması haqqında yazılı rəy verir;

• magistrlik dissertasiyasının təqdimatının və onun müdafiəsi üçün məruzənin hazırlanması prosesində rəhbərlik etdiyi magistranta məsləhət verir;

• tədqiqat mövzusuna dair elmi materialların nəşrə hazırlanmasında magistranta kömək edir.

3. Magistrlik dissertasiyasının tapşırıq vərəqində əks etdirilmiş işlərin icrasına nəzarət elmi rəhbər tərəfindən həyata keçirilir. Bu nəzarət formalarından biri hər semestr ərzində, magistrlik dissertasiyasının rəhbərinin iştirakı ilə, magistrantın elmi-tədqiqat mövzusuna dair yerinə yetirdiyi işlərə dair hesabtının dinlənilməsidir.

4. Hesabat dinləmələri müvafiq ixtisas kafedralarında həyata keçirilir. Kafedra tədris ilində iki dəfə magistrlik dissertasiyalarının cari vəziyyəti haqqında magistrantların və elmi rəhbərlərin hesabatlarını dinləyir. Onlar magistrlik dissertasiyalarına dair işlərin hansı səviyyədə icra olunması haqqında magistr proqramının rəhbərini və dekanalığı məlumatlandırırlar.

5. Dissertasiyanın elmi rəhbəri işin keyfiyyətini yoxlayır və o başa çatdıqdan sonra magistr dissertasiyasına yazılı rəy verir. Rəydə müəllifin nümayiş etdirdiyi ümumi, peşəkar və xüsusi əhəmiyyət daşıyan kompetensiyalar, magistrlik dissertasiyasının mövzusunu araşdırarkən göstərdiyi nəzəri bilik və praktiki bacarıqların mənimsənilmə səviyyəsi, magistrant tərəfindən problemin təhlili, xüsusən də bu iş üçün zəruri tədqiqat metodlarından əsaslı istifadə, işin strukturunun qurulması məntiqi, elmi nəticələri və praktiki tövsiyələri formalaşdırmaq bacarığı kimi bacarıqlar təhlil edilərək

dəyərləndirilir. Magistrantın dissertasiya işini yerinə yetirərkən müstəqillik dərəcəsi, problemlərin açıqlanmasında və onların həlli ilə bağlı təkliflərin hazırlanmasında şəxsi töhfəsi, magistrlik dissertasiyasının tələblərinə hansı dərəcədə əməl olunması rəydə öz əksini tapmalıdır. Rəylərdə magistrlik dissertasiyasının müdafiəyə buraxılmasının mümkünlüyü (mümkün olmaması) barədə fikir bildirilməlidir.

6. Magistrlik dissertasiyalarına mütləq qaydada elmi rəhbərdən başqa digər mütəxəssis tərəfindən əlavə rəy verilməlidir. Bu zaman rəyçi mövzunun aktuallığını, problemin tədqiqində müstəqillik dərəcəsini, müəllifin öz elmi mövqeyinin olmasını, elmi tədqiqat metodlarından istifadə edə bilməsini, əsaslılıq dərəcəsini, əldə edilmiş məlumatların və tövsiyələrin yeniliyini və praktik əhəmiyyətini qiymətləndirməlidir.

## MAGİSTRLİK DİSSERTASİYASININ MƏQSƏDİ, MƏRHƏLƏLƏRİ, QURULUŞU VƏ MƏZMUNU

Magistrlik dissertasiyasının yerinə yetirilməsində məqsəd təhsil müddətində tələb olunan kreditləri toplamış magistrantın aşağıda qeyd olunan kompetensiyalarını dəyərləndirməkdən ibarətdir:

• müvafiq elmi istiqamət və magistr proqramı üzrə peşə və ümumtəhsil hazırlığının səviyyəsini;

• ixtisasına uyğun elmi sahədə müxtəlif informasiya mənbələrini, o cümlədən xarici elmi mətbuatı müstəqil şəkildə araşdırmaq və ümumiləşdirmək bacarığını;

• elmi tədqiqatları müstəqil aparmaq, eksperimentlər təşkil etmək, layihələndirmə işlərini yerinə yetirmək, elmi-

praktiki materialları sistemləşdirilmək və təqdim etmək qabiliyyətini;

• aparılan tədqiqatların yekunlarına dair nəticələri və praktiki tövsiyələri müstəqil şəkildə formalaşdırmaq və əsaslandırmaq bacarığını.

Magistrlik dissertasiyasının icrası prosesi aşağıdakı mərhələləri əhatə edir:

• tədqiqatın mövzusunun və məqsədlərinin seçilməsi;
• bu işə qoyulan tələblərin öyrənilməsi;
• elmi rəhbər ilə iş planının razılaşdırılması;
• problemə dair informasiya resurslarının öyrənilməsi, tədqiqatın başlıca məqsədinin, vəzifə və metodlarının müəyyənləşdirilməsi;
• problemin (mövzunun) bilavasitə işlənməsi və eksperimental işlərin aparılması;
• nəticələrin təhlili və ümumiləşdirilməsi;
• işin yekunlaşdırılması və tələblərə uyğun tərtibatı;
• dissertasiyanın rəyə təqdim edilməsi;
• müdafiəyə hazırlıq, müdafiə prosesi və işin qiymətləndirilməsi.

Magistr dissertasiyasının strukturu aşağıdakı hissələrdən ibarət olmalıdır:

• titul vərəqi;
• tapşırıq;
• mündəricat;
• ixtisarların və şərti işarələrin siyahısı;
• giriş;
• bölmələrə və yarımbölmələrə və yaxud fəsillərə və paraqraflara bölünən əsas hissə;
• nəticə;

• biblioqrafik siyahı (istifadə olunmuş ədəbiyyat);
• əlavələr (lazım olduqda).

**Titul vərəqi** universitet üzrə qəbul olunmuş formada tərtib edilir (əlavə 2). Burada magistrantın soyadı və adı, ixtisası, dissertasiyanın mövzusu, elmi rəhbər, işin müdafiəyə çıxarıldığı il göstərilir.

**Giriş** işin ümumi xarakteristikasını əks etdirir və aşağıdakı elementləri özündə əks etdirir:

• Mövzunun aktuallığı – tədqiq olunan problemin mahiyyətinin şərhi, tədqiqat mövzusunun işlənmə dərəcəsinin izahı, elm və praktikanın tələblərinə uyğun olaraq problemin həllinin zəruri olmasını əsaslandıran qısa (1-2 səhifə) açıqlamadan ibarətdir. Şərh və izahları verərkən nəzərə almaq lazımdır ki, dissertasiya, əvvəllər qeyd edildiyi kimi, müstəqil elmi-tədqiqat işidir. O, müəllifinin mövzunu seçə bilməsini, bu mövzunun müasirliyini və sosial əhəmiyyətini nə qədər düzgün başa düşməsini və qiymətləndirməsini, başqa sözlə işi icra edən magistrantın elmi yetkinliyini və peşəkarlığını xarakterizə etməlidir;

• Tədqiqatın məqsəd və vəzifələri – qarşıya qoyulan tapşırıqların həllinə kömək edən məqsəd və konkret vəzifələrin müəyyənləşdirilməsidir. Seçilən mövzunun aktuallığını əsaslandırdıqdan sonra məntiqi ardıcıllıqla aparılan tədqiqatın məqsədi açıqlanır, həmçinin bu məqsədə nail omaq üçün həll edilməsi zəruri olan konkret vəzifələr göstərilir. Bunlar adətən ardıcıl sadalanmaqla (öyrənmək..., təsvir etmək..., qurmaq..., tapmaq..., düsturu çıxartmaq və s.) əks olunur. Bu vəzifələri mümkün qədər aydın və konkret şəkildə formalaşdırmaq lazımdır. Çünki dissertasiyanın fəsil və paraqraflarının başlıqları həmin vəzifələrin həllinə yönələn araşdırmaları əks

etdirir. Başqa sözlə desək dissertasiyanın bölmələrinin başlıqları müvafiq olaraq tədqiqatın yerinə yetirilməsinə dair qoyulmuş tapşırıqlardan yaranır;

• Tədqiqatın predmeti və obyekti - dissertasiyanın mövzusu və başlığı ilə müəyyən edilir. Obyekt problemli vəziyyəti yaradan və öyrənmək üçün seçilmiş bir proses və ya hadisədir. Predmet obyektin sərhədləri daxilində mövcud olanlardır. Tədqiqatın obyekti və predmeti elmi prosesin ümumi və xüsusi kateqoriyaları olaraq bir-biri ilə əlaqəlidir. Obyektdə onun tədqiqat predmeti olan hissəsi ayrılır və dissertantın əsas diqqəti də ona yönəldilir. Məhz tədqiqat predmeti dissertasiyanın titul vərəqində göstərilən mövzusunu müəyyən edir;

• Tədqiqat metodları – yerinə yetirilən dissertasiya işində istifadə olunmuş müşahidə, sınaq, ölçmə, hesablama metodikalarından və s. üsullardan bəhs edir. Elmi tədqiqat metodlarını ümumi və xüsusi olaraq iki qrupa bölürlər. Elmi biliyin ümumi metodları adətən üç böyük qrupa ayrılır:

- empirik tədqiqat metodları (müşahidə, müqayisə, ölçmə, təcrübə);

- həm empirik, həm də nəzəri tədqiqat səviyyəsində istifadə olunan metodlar (abstraksiya, analiz və sintez, induksiya və deduksiya, modelləşdirmə və s.);

- nəzəri tədqiqat metodları;

• Elmi yenilik elementləri – tədqiqat prosesində əldə edilən nəzəri xarakterli yeni nəticələrdir (yeni yanaşma, asılılıq, üsul, model, metodika və s.);

• İşin praktiki əhəmiyyəti (2-3 və daha çox bənd) – işin icrası zamanı əldə edilmiş, praktiki şəraitdə səmərə (keyfiyyət göstəricilərinin yüksəlməsi, iqtisadi effekt, vaxt itkisinin və

maddi məsrəflərin azaldılması, tapşırıqların kompleks həlli və s.) verə biləcək tətbiqi xarakterli yeni nəticələri (metodikalar, informasiya texnologiyaları, proqram vasitələri və s.) əks etdirir;

• Müdafiəyə çıxarılan müddəalar – yerinə yetirilən tədqiqat işinin əhəmiyyətini və keyfiyyətini qiymətləndirməyə imkan verən yeni və elmi-praktiki xarakterli nəticələri nəzərdə tutur;

• Nəticələrin aprobasiyası – dissertasiya işinin əsas müddəalarının elmi seminar və konfranslarda müzakirəsini əks etdirir. Burada elmi qrant müsabiqələrində və konfranslarda uğurlu iştiraka görə alınan diplom və fəxri fərmanları da göstərmək məqsədəuyğundur;

• Nəşrlər – magistrantın müəllifliyi ilə tədqiqatların gedişatı və əsas nəticələrindən bəhs edən dərc olunmuş əsərlərin sayını göstərir.

**Əsas hissə** – elmi-tədqiqat işinin ana xəttini təşkil edir. O, tədqiqatların nəzəri və eksperimental bölmələrini, həmçinin onların real şəraitdə icra olunması məsələlərini özündə birləşdirir. Əsas hissədə tədqiq olunan problemin mövcud vəziyyəti, onun həlli üçün təklif olunan üsul və vasitələr, tədqiqatın nəticələrinin praktik tətbiqindən əldə olunacaq səmərə, onun perspektivləri göstərilir. Bölmələrdə dissertasiya mövzusu məntiqi və əsaslandırılmış şəkildə açıqlanır, tədqiqatların metodikası və texnikası kifayət qədər geniş formada şərh edilir, alınan nəticələr təhlil olunur, sistemləşdirilir və ümumiləşdirilir. Əsas hissə, bir qayda olaraq, üç fəsildən ibarət olur. Ümumi halda bu hissənin aşağıdakı tərkib hissələrinə ayırmaq olar:

- nəzəri hissə;

- tədqiqatın predmet və metodologiyasının təsviri;

- təcrübi (eksperimental) hissə.

Qeyd etdiyimiz kimi dissertasiya işinin yuxarıda sadalanan fəsillərində tədqiqatın metodoloji əsasları və texniki bazası nəzərdən keçirilir, nəticələr ümumiləşdirilir. Elmi problemin həllini başa düşmək üçün çox da vacib olmayan bütün materiallar əlavələrə çıxarılır. Əsas hissənin fəsillərinin məzmunu dissertasiya işinin mövzusuna dəqiq uyğun olmalıdır və onu tam açıqlamalıdır. Bu fəsillər müəllifin mövcud elmi materialı sıxışdırılmış, məntiqli və arqumentləşdirilmiş şəkildə ifadə etmək bacarığını üzə çıxarmalıdır.

**Yekun hissə** (Nəticə) – görülən işlərin və əldə olunan nəticələrin, onların analoqları ilə müqayisəli xarakteristikasının ümumi şəkildə təsvirini nəzərdə tutur. Bununla yanaşı, görülmuş işlərin əsas əhəmiyyətinin nədən ibarət olduğunu, işin əsas məqsədindən başqa maraq doğura biləcək hansı kənar nəticələrin alındığını, mövzunun sonrakı inkişafı ilə bağlı perspektivləri göstərmək vacibdir. Belə bir ardıcıllıqla hazırlanmış yekun hissə dissertasiyanın elmi səviyyəsini xarakterizə edərək onun müəllifinin öz ixtisası üzrə malik olduğu peşə kompetensiyalarını və elmi kvalifikasiyasını göstərir.

Bəzi hallarda araşdırılan mövzunun davam etdirilməsinin yollarını, onun daha dərindən öyrənilməsinin formalarını və metodlarını, həmçinin gələcək tədqiqatçıların ilk növbədə həll etməli olacağı konkret vəzifələri göstərmək zərurəti yaranır. Nəticəyə nəzəri materialların dəyərini artıran praktik təkliflər də daxil ola bilər.

**Istifadə olunmuş ədəbiyyatların siyahısı** – dissertasiyasının işlənməsi zamanı müraciət olunan kitab, elmi

jurnal, məqalə, dövlət sənədləri, qanunvericilik aktları və s. informasiya mənbələrinin (o cümlədən internet resurslarının) ardıcıllığı şəklində tərtib olunur. Istifadə olunan ədəbiyyatlar siyahısına daxil edilmiş hər bir mənbə dissertasiyanın mətnində öz əksini tapmalıdır. Magistrlik dissertasiyasının mətnində istifadə olunan mənbələrə istinadlar olmalıdır. İstinadlar və istifadə olunan ədəbiyyatların siyahısı "dissertasiyanin tərtibatı qaydalari" bölməsində göstərilən tələblərə uyğun formada yazılmalı və sıralanmalıdır .

**Əlavələr** – bölməsində dissertasiyanın əsas hissəsinin mətninə uyğun yardımçı materiallar, cədvəllər, illüstrasiyalar və s. məlumatlar yerləşdirilir. Məzmununa görə bu bölmə çox rəngarəngdir. Burada məsələn, orjinal sənədlərin surətləri, hesabat materiallarından çıxarışlar, istehsal planları və protokollar, təlimat və qaydaların ayrı-ayrı maddələri, əvvəllər yayımlanmamış mətnlər, yazışmalar və sair ola bilər.

Əlavələrə istifadə olunan ədəbiyyatların biblioqrafik siyahısını, əsas mətnə aid olmayan sorğu nəticələrini və qeydlərini daxil etmək olmaz. Əlavələr son səhifələrdə dissertasiyanın davamı kimi yerləşdirilir. Əlavələr iri həcmdə və ya formatda olduqda onları xüsusi qovluqda ayrıca blok şəklində təqdim edirlər. Qovluğun üzərinə "Əlavələr" yazılmış və dissertasiyanın titul vərəqinin bütün elementlərini təkrarlayan vərəq yapşıdırılır.

Hər bir əlavə yeni səhifədən başlamalı və tematik şəkildə adlandırılmalıdır. Dissertasiyada birdən çox əlavə mövcud olduqda onlar ərəb rəqəmləri ilə (№ işarəsi yazılmır) nömrələnir, məsələn: "Əlavə 1", "Əlavə 2" və s. Əlavələrin verildiyi səhifələrin nömrələnməsi əsas mətnin səhifələrinin ümumi nömrələnməsini davam etdirməlidir.

Əsas mətnin tətbiqlərlə əlaqəsi "bax" sözü ilə ifadə olunan istinadlar vasitəsilə həyata keçirilir. Bu istinadlar bir qayda olaraq əsas mətnin arasında mötərizədə göstərilir.

## MAGİSTRLİK DİSSERTASİYASININ REFERATI

**Referat** – dissertasiyasını müdafiəyə təqdim edən zaman ona əlavə edilən məcburi sənəddir. Referatın tərtib olunması tələbənin magistrlik səviyyəsinə çatmasını təsdiq edən zəruri bir göstəricidir. Magistrlik dissertasiyasının referatı tədqiqatlar zamanı əldə edilən nəticələrin qısa (tezis şəklində) ifadəsidir. Onun sayəsində ixtisaslaşmış elmi şuranın üzvləri müdafiəyə çıxarılmış dissertasiya haqqında məlumat əldə edə bilərlər. Referat komissiya üvlərinin sayına uyğun olaraq bir neçə nüsxədə çap olunaraq həm müdafiədən əvvəl tanış olmaq üçün, həm də müdafiə prosesində onlara təqdim edilə bilər.

Magistrlik dissertasiyasının referatının titul vərəqi dissertasiyanın titul vərəqəinə anoloji olaraq tərtib edilir və oradakı bütün məlumatları özündə əks etdirir (əlavə 3). Referatın mətni A5 formatında, səhifənin kənarlarından 15 mm boş sahə saxlanılmaqla, Azərbaycan dilində latın, rus dilində kiril və ingilis dilində ingilis (ABŞ) əlifbası, "Times New Roman" 12 şrifti ilə bir sətirarası intervalla qara rənglə yazılır. Titul vərəqinin arxasında (2-ci səhifədə) dissertasiya işinin yerinə yetirildiyi kafedranın adı yazılır, elmi rəhbərin, digər rəyçinin və ixtisaslaşdırılmış elmi şuranın katibinin imzaları üçün yer ayrılır, dissertasiyanın müdafiə tarixi, saatı və müdafiənin keçiriləcəyi ünvan qeyd olunur. Referatın strukturu 4 bölmədən ibarət olur:

- Işin ümumi səciyyəsi – dissertasiyanın giriş hissəsini əks etdirir. Burada mövzunun aktuallığı, qarşıya qoyulan məqsəd və vəzifələr, tədqiqatın obyekti və predmeti, hipotezin qoyuluşu əks olunur. Bunlarla yanaşı bu bölmədə mövzunun yeniliyini, istifadə olunan tədqiqat metodlarını və müdafiəyə çıxarılan müddəaları qeyd etmək lazımdır;
- Əsas hissə – qarşıya qoyulan məqsəd və vəzifələrə nail olunmaqla əldə edilən nəticələrdən, işin praktiki əhəmiyyətindən, eləcə də tədqiqatçı tərəfindən qoyulmuş hipotezin təsdiq olunmasından (və ya inkar edilməsindən) bəhs edir. Əsas hissənin mətni fəsil, başlıqlar və altbaşlıqlara bölünür. Burada lazım gəldikdə cədvəllər, şəkillər, qrafiklər, diaqramlar, sxemlər və s. verilə bilər;
- Nəticələr – dissetasiyasının ümumi nəticələri əsasında göstərilir. Nəticələr hissəsində tədqiqat işinin yekunu olaraq magistrantın əldə etdiyi elmi və praktiki nəticələr və tövsiyələr verilir. Burada mövzu üzrə sonrakı perspektiv tədqiqatların aparılması ehtimalı da öz yerini tapır;
- Nəşrlər – magistrantın tədqiq etdiyi elmi istiqamət üzrə çap etdirdiyi işlərin siyahısıdır.

# DİSSERTASİYANIN TƏRTİBATI QAYDALARI

(Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin 29 oktyabr 2019-cu il tarixli qərarı ilə təsdiq edilmiş "DİSSERTASİYANIN TƏRTİBİ QAYDASI" adlı sənədin tələblərinə uyğun olaraq hazırlanmışdır)

Magistrlik dissertasiyasının həcmi 60-80 səhifə təşkil etməlidir. Buraya əlavələr daxil deyildir. Dissertasiyanın mətni kompüterdə (Word formatında) çap olunur. Çap A4 (210 x 297 mm) formatlı ağ kağızın bir üzündə, sol boş sahə – 30 mm, sağ – 10 mm, yuxarı – 20 mm və aşağı 25 mm olmaqla yerinə yetrilir. Dissertasiyadakı bütün xətlər, hərflər, rəqəmlər və işarələr aydın və eyni qara çalarlıqda olmalıdır. Dissertasiya səhifələrinin sıra nömrəsi hər bir səhifənin aşağı hissəsində, boş sahənin sağında yazılır. Mündəricatda fəsil, paraqraf və bəndlərin başlıqlarının dissertasiyanın hansı səhifəsindən başlandığı göstərilir. Əgər dissertasiyada spesifik terminoloqiya, həmçinin geniş yayılmamış ixtisarlar, yeni simvollar, işarələr və s. istifadə edilmişdirsə, onların izahatı "İxtisar siyahısı" başlığı altında ayrıca vərəqdə dissetasiyanın əvvəlində verilməlidir. Siyahı sütün şəklində yazılır, sütunun sol tərəfində (əlifba sırası ilə) simvol şəklinə salınmış ixtisarlar, onların qarşısında isə simvolun dəqiq açılışı verilir.

Fəsillərin başlıqları mətnə simmetrik şəkildə, qaraldılmış böyük hərflərlə, paraqrafların başlıqları isə absazdan başlayaraq sətri hərflərdə yazılmalıdır (birinci baş hərf istisna olmaqla). Başlqların yazılışında sözlər sətirdən sətrə keçirilməməli, başlığın sonunda nöqtə qoyulmamalıdır. Əgər başlıq iki cümlədən ibarətdirsə, onları nöqtə qoymaqla biri-birindən ayırmaq lazımdır.

“MÜNDƏRİCAT”, “GİRİŞ”, “NƏZƏRİ HİSSƏ”, “PRAKTİKİ HİSSƏ”, “NƏTİCƏ VƏ TƏKLİFLƏR”, “İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT”, “ƏLAVƏLƏR” sözləri dissetasiyanın uyğun struktur hissəsinin başlığı kimi qəbul edilməlidir.

Fəsil və paraqrafların, eləcə də başlıq və mətnin arasındakı məsafə 2,5 interval olmalıdır. Başlığın altından xətt çəkmək olmaz. Hər fəsil yeni səhifədən başlanmalıdır.

Dissertasiyanın səhifələri ərəb rəqəmləri ilə nömrələnir. Səhifələr nömrələnərkən üz vərəqi də nəzərə alınır. Üz vərəqindən sonra gələn səhifədə “2” rəqəmi, sonrakı səhifələrdə isə ardıcıli nömrələr səhifənin yuxarı sağ küncündə çap olunur. Səhifələr (əlavələr, arayışlar, aktlar və sair daxil olmaqla) ardıcıl olaraq nömrələnir. İstifadə olunmuş ədəbiyyat siyahısına daxil olan bütün nəşrlər ərəb rəqəmləri ilə ardıcıl nömrələnməlidir.

Fəsillər rum rəqəmləri ilə ardıcıl nömrələnir (məsələn: I FƏSİL). Mündəricat, giriş və nəticəyə nömrə qoyulmur. Fəsillər daxilində paraqraflar ardıcıl olaraq ərəb rəqəmləri ilə nömrələnir. Paraqrafın nömrəsi bir-birindən nöqtə ilə ayrılan fəslin və paraqrafın nömrəsindən ibarətdir. Nömrənin sonunda nöqtə işarəsi qoyulur. Məsələn, 2.5. – yəni ikinci fəslin beşinci paraqrafı. Paraqraf daxilində bəndlər olduqda onlar ardıcıl olaraq ərəb rəqəmləri ilə nömrələnir. Bəndin nömrəsi bir-birindən nöqtə ilə ayrılan fəslin, paraqafın və bəndin nömrəsindən ibarətdir. Nömrənin sonunda nöqtə işarəsi qoyulur. Məsələn, 2.5.1. – yəni ikinci fəslin beşinci paraqrafının birinci bəndi. Ayrıca səhifədə yerləşən illüstrasiyalar da (cədvəllər, diaqramlar, çertyojlar, sxemlər, qrafiklər) dissertasiyanın səhifələri kimi nömrələnir. Ölçüləri

A4 formatından böyük olan cədvəllər, şəkillər, çertyojlar bir səhifə kimi qəbul edilir və dissertasiyanın sonunda, nəticədən sonra onların mətndəki sıra ardıcıliığı ilə yerləşdirilir.

Dissertasiya işində sistemli rəqəmli materiallar bir qayda olaraq cədvəl quruluşunda tərtib edilir. Hər bir cədvəl müvafiq başlığa malikdir. “Cədvəl” sözü və başlıq böyük hərflə başlanmalıdır. Başlığın altından xətt çəkilməməlidir. Cədvəl, mətndə onun ilk xatırladılmasından sonra elə yerləşdirilir ki, dissertasiyanı döndərmədən və ya saat əqrəbi istiqamətində döndərdikdən sonra onu oxumaq mümkün olsun. Sətirlərin və sütunların sayı çox olan cədvəlləri hissələrə bölüb bir neçə səhifədə yerləşdirmək lazımdır. Əgər cədvəl iki və daha çox səhifədə yerləşirsə, “Cədvəl” sözü və onun nömrəsi cədvəlin birinci səhifəsinin sağ üst tərəfində bir dəfə göstərilir, qalan hissələrin müvafiq yerlərində “ardı” sözü yazılır. Əgər dissertasiyada bir neçə cədvəl varsa, onda “ardı” sözünün qarşısında cədvəlin nömrəsi yazılır (məsələn: Cədvəl 1.2-nin ardı).

Fəsillər daxilində verilən cədvəllər ardıcıli olaraq ərəb rəqmələri ilə nömrələnir (əlavədə verilmiş cədvəllər istisna olmaqla). “Cədvəl” sözü, onun nömrəsi və adı cədvəlin üstündə sağ küncdə yazılır. “Cədvəl” sözü və cədvəlin adı sətri hərflərlə (birinci hərf istisna olmaqla), tünd qara rənglə yazılır və altından xətt çəkilmir. Cədvəlin nömrəsi bir-birindən nöqtə ilə ayrılan fəslin, paraqrafın və cədvəlin ardıcıl nömrələrindən ibarətdir. Məsələn, Cədvəl 1.2.3 – yəni, birinci fəslin ikinci paraqrafının üçüncü cədvəli. Cədvəllərin sütun və sətirlərinin başlıqları, onların içərisindəki məlumatlar üçün şriftin ölçüsü 12, sətirlərarası məsafə 1 interval olmalıdır. Mətndə verilən düsturların sayı birdən artıq olduqda ərəb rəqmləri ilə ardıcıli

nömrələnməlidir. Düsturun nömərsi bir-birindən nöqtə ilə ayrılmış fəslin və düsturun ardıcıl nömrələrindən ibarət olaraq onunla bir səviyyədə səhifənin sağ tərəfində mötərizənin içində yazılır (məsələn: /3.1/). Düsturda rast gəlinən simvolların qiyməti və ədədi əmsalların izahı, onların düsturdakı yerləşmə ardıcılllığını nəzərə alaraq, bilavasitə düsturun altında verilir. Hər bir simvolun və ədədi əmsalın qiyməti yeni sətirdə yerləşdirilməlidir. İzahatın birinci sətri "Burada" sözündən başlamalıdır.

Tənliklər və düstürlar mətndən boş sətirlər vasitəsilə ayrılır. Hər düstürun üstündə və altında bir-iki boş sətir olmalıdır. Əgər tənlik bir sətrə yerləşməyibsə, onun ardı bərabərlik (=) və ya plyus (+), minus (-), vurma (x), bolmə (:) işarələrindən sonra yeni sətrə keçirilə bilər.

Dissertasiyanın mətnində istifadə olunmuş böyük həcmli mənbələr ədəbiyyat siyahısında əlifba sırası ilə yazılmalı və nömrələnməlidir. İstinad olunmuş mənbənin ədəbiyyat siyahısındakı nömrəsi mətndəki istinaddan sonra kvadrat və ya adi mötərizədə göstərilir (məsələn: [115] və ya /115/).

Dissertasiyanın mətnində böyük həcmli kitabların müxtəlif səhifələrinə bir neçə dəfə istinad olunduğu halda ədəbiyyat siyahısında bu mənbə yalnız bir dəfə göstərilir, lakin mətndəki istinaddan sonra əsərin siyahıdakı nömrəsi, cild (çoxcildli əsərlər üçün) və müvafiq səhifələr göstərilir (məsələn: [37, 301-328], [183, j.2, 136] və mətnin digər bir yerində [44, 176], [183, s.1, 74-89] və s.).

Dissertasiya işində istifadə edilmiş mənbələr çap olunduqları dillərdə (əvvəlcə: Azərbaycan, sonra türk, ingilis, rus, alman və s.) əlifba sırası ilə yazılır və ardıcıl nömrələnərək, siyahıda göstərilir. İstifadə edilmiş ədəbiyyat

siyahısında son 5-10 ilin ədəbiyyatına üstünlük verilməlidir. Elektron resursların linkləri də ədəbiyyat siyahısına əlavə edilməlidir.

Siyahıya daxil olan mənbələr haqqında məlumat aşağıdakı kimi göstərilir: Kitabların (monoqrafiya, dərsliklər və s.) biblioqrafik təsviri müəllifin və ya kitabın adı ilə tərtib edilir, müəlliflər dörd nəfərədək oduqda müəllifin və ya müəlliflərin soyadı və ya inisialları veirlir. Müəllifi göstərilmiyən və dörddən artıq müəllifi olan kitablar (kollektiv monoqroafiya və dərsliklər) kitabın adı ilə verilir. Mətnin altında sətiraltı istinadlar məqsədəuyğyn deyildir.

Rreferatın mətni A5 formatında, səhifənin kənarlarından 15 mm boş sahə saxlanılmaqla, Azərbaycan dilində latın, rus dilində kiril və ingilis dilində ingilis (ABŞ) əlifbası, "Times New Roman" 12 şrifti ilə bir sətirarası intervalla qara rənglə yazılır. Referatın səhifələri nömrələnərkən üz qabığı da nəzərə alınır. Referatın üz qabığı nömrələnmir. Nömrələmə 3-cü səhifədən, nömrələr səhifənin aşağı orta hissəsində ərəb rəqəmləri ilə ardıcıl yazılır.

Referat dissertasiyanın yazıldığı dildə olunmalıdır. Müstəsna hallarda kafedranın razılığı ilə magistrant referatı xarici dillərdən birində yaza bilər və müdafiə zamanı suallara həmin dildə cavab verə bilər.

# MÜDAFIƏ PROSESİ

Nəzəri tədris proqramını yerinə yetirmiş, elmi və pedaqoji təcrübəni müvəffəqiyyətlə başa vuraraq tələb olunan kreditləri qazanmış magistrantlar dissertasiyalarının tamamlanması və müdafiəsi prosesinə başlayırlar. Tədris planına əsasən dissertasiya işinin tamamlanmasına 10 həftə (iqtisadiyyat yönümlü ixtisaslrada 22 həftə), müdafiə prosesinə isə 2 həftə vaxt ayrılır.

Magistrant dissertasiya işinin hazırlıq vəziyyəti barədə vaxtaşırı elmi rəhbərinə məlumat verir və onu tələb olunan məzmunda və formada yerinə yetirdikdən sonra elmi rəhbərə təqdim edir. Elmi rəhbər işi yoxladıqdan sonra özünün yazılı rəyi ilə birlikdə ilkin müzakirə üçün kafedraya təqdim edir. Rəydə dissertasiyanın bütün bölmələri üzrə görülmüş iş səciyyələndirilir və alınan nəticələrin doğruluğu, nəzəri və təcrübi əhəmiyyəti, eləcə də magistrantın fərdi xüsusiyyətləri qiymətləndirilir.

İxtisas kafedrasının qərarı ilə magistrlik dissertasiyası hazır olan tələbə yekun müdafiə prosesindən bir neçə həftə əvvəl kafedrada ilkin müdafiədən keçir. Bundan əvvəl iş antiplagiat proqramında yoxlamadan keçməli və tədqiqatın mətninin "orijinallığını" təsdiqləyən sənəd təqdim edilməlidir.

İlkin müdafiənin nəticəsi və elmi rəhbərin yazılı rəyi müsbət olduqda müdafiəyə təqdim olunmuş magistrlik dissertasiyası məcburi qaydada kənar rəyə (resenziyaya) verilir. Resenzent dissertasiya işinin təhlilini aparır və təqdim olunmuş işə dair yazılı rəy (resenziya) təqdim edir.

Əgər mövzu fənlərarası xarakterə malikdirsə o zaman dissertasiya işi bir neçə rəyçiyə göndərilə bilər. Resenzent

magistrlik dissertasiyası ilə tanış olduqdan sonra öz rəyini tərtib edir. Rəydə işin müsbət və çatışmayan cəhətləri qeyd edilir, onun keyfiyyəti arqumentləşdirilir və bu işin həqiqi praktiki dəyəri haqqında fikirlər əks etdirilir. Magistrant dissertsaiyaya verilmiş rəylə müdafiədən ən azı 5 təqvim günü əvvəl tanış olmalıdır.

İlkin müdafiə və yazılı rəylərin nəticələri müsbət olduqda magistrantın yekun müdafiəyə buraxılması barədə qərar qəbul edilir, bundan sonra dissertasiya işi qoşma sənədlərlə və yekun rəylə (kafedranın müzakirə protokolundan çıxarışla) birlikdə Magistratura şöbəsinə təqdim olunur.

Magistrlik dissertasiyasını müdafiəyə təqdim edən zaman onun elektron variantı yazılmış kompakt disk, elmi rəhbər, kafedra müdiri və magistratura şöbəsinin rəhbəri tərəfindən imzalanmış magistrantın fərdi iş planı, dissertasiyanın müdafiəyə yararlılığı haqqında elmi rəhbər və kənar rəyçinin (resenzentin) tərtib etdiyi imzalanmış rəylər, magistrantın dissertasiya mövzusuna dair çap olunmuş tezis və elmi məqalələrinin surəti, magistrlik dissertasiyasının referatı sənədlərə əlavə edilir.

Magistratura şöbəsinin müdiri təqdim olunmuş materialları nəzərdən keçirərək onların tələblərə cavab verməsi barədə müvafiq qərar qəbul edir və dissertasiya işini tamamlamış magistrantların İxtisaslaşdırılmış Elmi Şuralar qarşısında müdafiəyə buraxılmaları üçün rektorata təqdimatla müraciət edir. Magistrantların İxtisaslaşdırılmış Elmi Şuralar qarşısında müdafiəyə buraxılmaları üçün universitetin rektoru tərəfindən müvafiq əmr verilir.

Magistrlik dissertasiyasının müdafiəsi İxtisaslaşdırılmış Elmi Şuranın açıq iclasında keçirilir. Müdafiə cədvəli tədris

planında göstərilmiş qrafikə uyğun olaraq magistratura şöbəsi tərəfindən tərtib olunur, rektorun əmri ilə təsdiq edilir və müdafiədən ən azı 1 həftə əvvəl elan edilir. Müdafiəyə elmi rəhbərlər, resenzentlər və digər şəxslər dəvət oluna bilər. İclası İxtisaslaşdırılmış Elmi Şuranın sədri və yaxud onun müavini aparır.

Ilk söz magistranta verilir. Çıxışdan sonra müəllif komissiya üzvlərinin suallarını cavablandırır. Daha sonra elmi rəhbər çıxış edərək, magistrantın öz tədqiqatının icrasına nə qədər müstəqil, yaradıcı yanaşdığını xarakterizə edir və işin magistratura təhsili üzrə mövcud dövlət standartlarının tələblərinə uyğunluğunu qeyd edir. Sonra ikinci rəyçiyə işi qısa formada xarakterizə etmək və qiymətləndirmək üçün vaxt verilir, daha sonra onun müzakirəsi başlayır. Sonda söz yenidən magistranta verilir ki, o da şərh və suallara cavab verir, çıxışlara öz münasibətini bildirir.

Müdafiənin nəticələri bir sıra kriteriyalar üzrə qiymətləndirilir, o cümlədən:

- magistrlik dissertasiyasının məzmununun zənginliyi;
- magistrlik dissertasiyasının tərtibatı;
- magistrantın məruzəsi;
- magistrantın müdafiə zamanı ona verilən sualları cavablandırması;
- elmi rəhbər tərəfindən magistrantın xarakteristikası;
- işə verilən rəylərin məzmunu;
- işin sınaqdan keçirilməsi.

Magistrlik dissertasiyalarının müdafiəsi zamanı magistrantın biliyinin qiymətləndirilməsi sadə səs çoxluğu əsasında açıq səsvermə yolu ilə aparılır. Magistrlik dissertasiyasının müdafiəsi “qeyri-kafi”, “kafi”, “yaxşı”, “əla”

qiymətlərlə qiymətləndirilir. Dissertasiya müdafiəsinin nəticələri İxtisaslaşdırılmış Elmi Şuranın iclas protokolu rəsmiləşdirildikdən sonra həmin gün elan edilir. Magistrlik dissertasiyasının nəticələri nəşr və ya tətbiq olunmaq üçün tövsiyə edilə bilər.

**Əlavə 1**

**AZƏRBAYCAN RESPUBLİKASI**
**ELM və TƏHSİL NAZİRLİYİ**
**GƏNCƏ DÖVLƏT UNİVERSİTETİ**

Fakültə ________________________________________
Kafedra ______________________________________
İxtisasın şifri və adı _____________________________
İxtisaslaşma ___________________________________

**MAGİSTRLİK DİSSERTASİYASININ TAPŞIRIQ VƏRƏQİ**

1. Dissertasiya mövzusu __________________________
2. İşin məqsədi __________________________________
3. İlkin Verilənlər və qoyulan tələblər ________________
4. Gözlənilən nəticələr və onların elmi-praktiki əhəmiyyəti
   _____________________________________________
5. Nəticələrin həyata keçirilməsi üsulları _____________
6. Dissertasiyada nəzərdən keçirilməli olan əsas məsələlərin təxmini siyahısı ____________________
7. Qrafiki və illüstrativ materiallatrın təxmini siyahısı ____

Elmi rəhbər: ________________________________
*elmi dərəcəsi, elmi adı (imza) (S.A.A.)*

Kafedra müdiri: ________________________________
*elmi dərəcəsi, elmi adı (imza) (S.A.A.)*

***Tapşırığı qəbul etdim***
Magistrant:__________________________________
*(imza) (S.A.A.)*

Tapşırığın verildiyi tarix: ”___“ ” 202_“ il

**Əlavə 2**

**AZƏRBAYCAN RESPUBLİKASI**

**ELM və TƏHSİL NAZİRLİYİ**

**GƏNCƏ DÖVLƏT UNİVERSİTETİ**

************* ********* *********

*(tələbənin soyadı, adı, atasının adı)*

*****************************************************

*dissertasiya mövzusunun adı*

mövzusunda

**MAGİSTRLİK DİSSERTASİYASI**

**İXTİSAS:** ************************************

(*ixtisasın şifri və adı)*

**İXTİSASLAŞMA:** ****************************

(*ixtisaslaşmanın adı)*

**ELMI RƏHBƏR:** ***** ****** ****** **************

*(elmi adı (dərəcəsi), inisialları, soyadı)*

**G Ə N C Ə – 2 0 2 __**

**Əlavə 3**

**AZƏRBAYCAN RESPUBLİKASI**

**ELM və TƏHSİL NAZİRLİYİ**

**GƏNCƏ DÖVLƏT UNİVERSİTETİ**

**************************** *********** *********

*(tələbənin soyadı, adı, atasının adı)*

**********************************************************

*dissertasiya mövzusunun adı*

mövzusunda magistrlik dissertasiyasının

**R E F E R A T I**

**İXTİSAS:** ***************************************

**(***ixtisasın şifri və adı)*

**İXTİSASLAŞMA:** ________************************_______

**(***ixtisaslaşmanın adı)*

**G Ə N C Ə – 202__**

**Əlavə 3-ün davamı** ( referatın 2-ci səhifəsi)

Magistrlik dissertasiya işi Gəncə Dövlət Universitetinin *************** kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: ___________ *** ******* **********

*(imza)* *(s.a.a.)*

Rəyçi: ___________ *** ******* **********

*(imza)* *(s.a.a.)*

Magistrlik dissertasiyasının müdafiəsi "___" "_________" 202_-cü il tarixdə saat ______ da keçiriləcəkdir.

Ünvan: Gəncə şəhəri, Cavad bəy Rəfibəyli küç.,57 (V tədris binası)

İxtisaslaşdırılmış elmi şuranın katibi:

___________ *** ******* **********

*(imza)* *(s.a.a.)*

# İSTİFADƏ OLUNMUŞ MƏNBƏLƏR

1. Azərbaycan Respublikasi Nazirlər Kabinetinin 12 may 2010-cu il tarixli 88№li qərarı ilə təsdiq edilmiş "Magistratura təhsilinin məzmunu, təşkili və "magistr" dərəcələrinin verilməsi Qaydaları".

2. Azərbaycan Respublikasi Nazirlər Kabinetinin 12 may 2010-cu il tarixli 348№li qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları".

3. Azərbaycan Respublikası Təhsil Nazirliyinin 31 avqust 2012-ci il tarixli 1463 saylı əmri ilə təsdiq edilmiş ali təhsil pilləsinin dövlət standartları (magistratura səviyyəsinin ixtisasları üzrə təhsil proqramları).

4. Azərbaycan Respublikası Təhsil Nazirliyinin 20 aprel 1998-ci il, 202№li əmri ilə təsdiq edilmiş "Magistrlik dissertasiyasının hazırlanması, təqdim olunması və müdafiəsi haqqında əsasnamə".

5. Azərbaycan Respublikası Təhsil Nazirliyinin 10 noyabr 1998-ci il tarixli, 742№li əmri ilə təsdiq edilmiş və Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 30 noyabr 1998-ci ildə (№137) qeydə alınmış Magistrlik dissertasiyasının müdafiə üçün ixtisaslaşdırılmış Elmi şuralar haqqında əsasnamə.

6. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 29 oktyabr 2019-cu il tarixli qərarı ilə təsdiq edilmiş “Dissertasiyanın tərtibi qaydası”.

7. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 29 oktyabr 2019-cu il tarixli qərarı ilə təsdiq edilmiş “Avtoreferatın tərtibi qaydası”.

# M Ü N D Ə R İ C A T


Giriş .......................................................................... 6

Ümumi müddəalar ..........................................................9

Magistrlik dissertasiyasinin mövzu seçi............................. 11

Magistrlik dissertasiyasina rəhbərlik ................................. 12

Magistrlik dissertasiyasinin məqsədi, mərhələləri, quruliuşu və məzmunu ..................................................... 14

Magistrlik dissertasiyasinin referatı .................................. 21

Dissertasiyanin tərtibati qaydaları ..................................... 23

Müdafiə prosesi ................................................................ 28

Əlavə 1 (magistrlik dissertasiyasinin tapşiriq vərəqi) ........ 32

Əlavə 2 (magistrlik dissertasiyasinin titul vərəqi) ........... 33

Əlavə 3 (magistrlik dissertasiyasinin referatinin üz vərəqi .................................................................... 34

İstifadə olunmuş mənbələr ................................................ 36

# AZƏRBAYCAN RESPUBLİKASI
# ELM və TƏHSİL NAZİRLİYİ
# GƏNCƏ DÖVLƏT UNİVERSİTETİ

# MAGİSTRLİK DISSERTASİYASI

## Yazılma metodikası, tərtibat qaydaları, müdafiə prosesi

Magistratura səviyyəsində təhsil alan tələbələr üçün

## METODİKİ TÖVSİYƏ

Yazılmağa verilmişdir: 14.02.2024-cü il.
Çapa imzalanmışdır: 21.02.2024-cü il.
Kağız formatı-(210x279)1/4, kağız№.1.
Uçot çap vərəqi: 2, tiraj 100.

---

Gəncə Dövlət Universitetinin mətbəəsi.

Rizoqrafiya üsulu ilə çap olunmuşdur.

Ünvan: Gəncə şəhəri, H.Əliyev pr. 429